# DAĞLAR OĞLU

*(Yazıçı – Əməkdar İncəsənət xadimi Məmmədhüseyn Əliyevin 90 illiyinə)*



Vaqif YUSİFLİ
*filologiya elmləri doktoru*

**Onu Azərbaycanın Cənub bölgəsində tanımayan yox idi. Həm yazıçı kimi, həm də o bölgənin nüfuzlu kişilərindən, ağsaqqallarından biri kimi. Amma bir söz adamı kimi onu təkcə Cənub bölgəsində deyil, Azərbaycanın hər bir guşəsində və hətta onun hüdudlarından kənarda da tanıyırdılar.**

Məmmədhüseyn Əliyev Azərbaycanın ucqar bir rayonunda-Lerikdə, Gürdəsər kəndində dünyaya göz açmışdı. Atası Axund Rüstəm din xadimi idi, İraqın Nəcəf şəhərində təhsil almışdı. Repressiya illərində təqiblərə məruz qalmış, Lənkəran qalasında həbsdə yatmışdı, ona görə də bu təqiblərə dözməyərək İrana köçmüşdü. O zaman Məmmədhüseyn iki-üç yaşındaydı. Tale onu çox məşəqqətlərdən keçirdi, amma sınmadı, əyilmədi. Orta təhsil illərini başa vurduqdan sonra Lənkəranda Pedoqoji Texnikumu bitirdi, sonra Bakıda APİ-nin tarix-fəlsəfə fakültəsində qiyabi təhsil aldı. Uzun illər Lerikdə, ayrı-ayrı məktəblərdə müəllimlik elədi, məktəb direktoru işlədi.. 1961-ci ildən isə Lənkərana köçdü.. Yenə də pedoqoji fəaliyyətlə məşğul oldu, rayonun ziyalıları arasında hörmət və nüfuz qazandı. 1982-ci ildən ömrünün sonuna qədər (1994) Azərbaycan Yazıçılar İttifaqının Lənkəran zona şöbəsinin məsul katibi kimi məsul bir vəzifədə çalışdı. (Bu vəzifədə çalışarkən o, təkcə Lənkəranda deyil, Cənub bölgəsində yaşayan yazarları hamısını ədəbi həyata cəlb edirdi, bu məqsədlə filialda, eləcə də ayrı-ayrı rayonların mədəniyyət mərkəzlərində yazıçılarla görüşlər keçirilirdi. Bu görüşlərdə Lənkərandan Şəkər Aslan, Vaqif Hüseynov, Həbib Səfərov, İltifat Saleh, Masallıdan Məmməd Kazım, Novruz Xoşbəxt, Xudakərim Fərzəliyev, Astaradan Novruz Əliyev, Aqil Yaqub, Yardımlıdan Sahib Əliyev, Cəlilabaddan Abbasağa fəal iştirak edir, oxucular qarşısında şeir və hekayələrini oxuyur, onları maraqlandıran suallara cavab verirdilər).

Bu onun qısa tərcümeyi-halı. Onun vəfatından 21 il keçir, amma Cənub bölgəsində-Lənkəranda, Lerikdə, Masallıda və eləcə də Bakıda Məmmədhüseyn Əliyevi unutmurlar. Təkcə onunla dostluq edənlər, ünsiyyət bağlayanlar deyil, həm də saysız-hesabsız oxucuları da.

O, ədəbiyyata şeirlə gəlmişdi. İlk şeiri 1947-ci ildə, “Ədəbiyyat və incəsənət” qəzetində dərc edilmişdi. Sonralar da o, şeirdən əl çəkmədi, rayon qəzetlərində xeyli şeiri çap olundu, hətta Həzi Aslanova həsr elədiyi “Vətən keşiyində” poeması da var. Amma Məmmədhüseyn Əliyev bir şair kimi şöhrət qazanmadı. Sağlığında xeyli kitabları işıq üzü gördü, amma bu kitabların heç birində onun şeirlərinə rast gəlmədik.

O, nasir idi və onu məşhurlaşdıran da nəsr əsərləri oldu.

Əllinci illərin sonlarında M.Əliyevin “Dağlar oğlu” romanı çap olundu və bu roman nəinki Azərbaycanda, ondan uzaqlarda da bu yazıçını tanıtdı.

Roman o zaman planetin ən qocaman sakini hesab olunan 150 yaşlı Mahmud Eyvazova həsr olunmuşdu.

Lerik o vaxtdan indiyə kimi uzunömürlülər diyarı adlandırılır. Buranın təbiəti olduqca səfalıdır. Xalq şairi Fikrət Qocanın bu misralarına diqqət edin: “Cənnətdən danışanda Lerik yada düşürmüş”. Gözəl dağ havası, sərin yaylaqlar, dağlar, meşələr, buz bulaqlar insanı qocalmağa qoymur. Əhalinin əsas peşəsi maldarlıqdır, əkinçilikdir, qoyun-quzu sürüləri düzü-dünyanı bürüyüb. İndi Lerikdə böyük quruculuq, abadlıq işləri aparılır. Çox keçməz ki, biz Lerikdən dünyanın ikinci Karlovı-Varısı kimi söz açarıq.

Leriki ən uzun ömürlü diyarı kimi tanıdan şəxs Mahmud Eyvazov oldu. Çox yaxşı yadımdadır,mən uşaq idim, o zaman dünyanın hər yerindən jurnalistlər Lerikə axışırdılar, hamı onun bu qədər uzun ömür sürməsinin sirrini öyrənməyə çalışırdı. Amma bu jurnalistlərdən çox-çox əvvəl, hələ əllinci illərin əvvəllərində Məmmədhüseyn Əliyev Mahmud Eyvazov haqqında yazılar yazırdı. 1952-ci ildə, “Ədəbiyyat qəzeti”ndə, daha sonra “Azərbaycan müəllimi”ndə onun planetin ən qocaman sakini barədə məqalələri dərc olunurdu. Sonralar o yazacaqdı: “Mən Lerik orta məktəbinə təyin olunana qədər Mahmud Eyvazov haqqında çox eşitmişdim. Onun barəsində məclislərdə, toylarda, yığıncaqlarda maraqlı əhvalatlar, xatirələr danışılırdı. Bu kişinin əsryarımlıq həyatı nağıla, dastana çevrilmişdi. Vaxtikən Puşkinin, Qriboyedovun, Axundovun müasiri olan Mahmud Eyvazov indi bizim müasirimiz idi. Mən onu şəxsən görmək, tanış olmaq, tarixi hadisələrlə dolu xatirələrini dinləmək istəyirdim”.Beləliklə, bu istək Məmmədhüseyn Əliyevi Mahmud kişi ilə yaxınlaşdırır. Onların kəndləri bir-birinə yaxın idi və tez-tez görüşürlər. Məlum olur ki, bu insan ömrünü qəflətdə keçirənlərə oxşamır. Adi bir kəndli həyatı yaşasa da, ayıq-sayıq adam olub. Bəy zülmünü görüb, həmkəndlilərinin ağır vəziyyəti ona da təsirsiz ötüşməyib. Amma Mahmud Eyvazov ruhən sağlam adam olub, bəlkə də ruhu, içindəki o təmizlik, saflıq havası ona bu uzun ömrü qıymayıb. O zaman Mahmud Eyvazovun “Necə olub bu qədər yaşamısan?” sualına bir cavab olurdu: “Buğda çörəyi yemişəm, həmişə təmiz havada gəzmişəm. Qışda Muğanda, yayda yaylaqda yaşamışam. Bizim bu dağların qoynunda çağlayan, sərin blaqların suyundan içmişəm. Arvadlarım (onlar növbə ilə ölüblər) mənə yaxşı baxıblar. 168 oğul, qız, nəvə, nəticə və kötükcələrim var. Dörd nəvəm və çoxlu nəticələrim Böyük Vətən müharibəsində həlak olublar...”

Mahmud Eyvazovun yaşadığı kəndin adı Pirəsora idi və bu da talış dilində “qədim həyət” mənasını verir. Bu kəndin əhalisi əslən tərəkəmə olublar, sonralar oturaq həyata keçiblər. Məmmədhüseyn Əliyevin Mahmud Eyvazova həsr etdiyi “Dağlar oğlu”, ardınca isə “Dağda bahar” romanlarında da həmin kənd, onun adət-ənənələri, adamların məşğuliyyəti ətraflı təsvir edilir. Ancaq bu romanlarda keçmişin acı səhnələri də nəzərdən qaçmır. Təbii ki, hər iki roman sovet dövründə qələmə alınmışdı və o dövrün ədəbiyyatına xas olan müəyyən ştamplar da nəzərdən qaçmır. Amma 150 il yaşamış bir insanın ömür yolunu təsvir etmək, uzun ömürlüyün sirrini açıqlamaq, öz qəhrəmanını hadisələr burulğanında canlandırmaq, ən başlıcası isə Cənub bölgəsinə xas olan adət-ənənələri, etnik xüsusiyyətləri oxucuya çatdırmaq yazıçıdan məharət tələb edirdi və o, bunun öhdəsindən gəldi. Roman Moskvada çap edildi, həm Mahmud Eyvazovu, həm də Məmmədhüseyn Əliyevi tanıtdı.

Məmmədhüseyn Əliyev daha bir neçə nəsr əsərinin müəllifidir və təbii ki, “Dağlar oğlu” romanı bir yazıçı kimi ona şöhrət gətirəndən sonra o, bu sahədə fəaliyyətini davam etdirməliydi. Budur, onun digər nəsr əsərləri: “Lənkəran hekayələri”, “Qulplu qızıllar”, “Balıqçı arvadı”, “Vadidə görüş”, “Müstəqil” povestləri, “Qayaların səsi”, “Torpağın ətri”, “Döyüşən illər”, “Qovuşmaz yollar” romanları.

“Lənkəran hekayələri”nin adı şərtidir. Bu silsilədə təqdim olunan hekayələrdə hadisələrin məkanı Lənkərandır, amma təsvir edilən hadisələr keçən əsrin altmışıncı illərinin mənəvi-əxlaqi problemlərini əks etdirir. Bu hekayələrdə vəzifəpərəstlik, yüngül həyata meyl, insanları get-gələ salan süründürməçilik, yaltaqlıq, məişət pozğunluğu və s. neqativ hallar tənqid hədəfinə çevrilir. “Qulplu qızıllar” povesti isə hüquqşünasların həyatından bəhs edir. Əsər “Azərbaycan” jurnalının 1971-ci il, 3-4-cü saylarında dərc edilmişdi. Povestdə detektiv janra məxsus xüsusiyyətlər də özünü göstərir. Povestdə mənfi surət kimi təqdim olunan Sarı Məzahir o dövrün antipod adlandırılan mənfi tiplərindən biridir. Müəllif onu tünd boyalarla təsvir etmişdir. Amma əsərdə o dövrün “müsbət” qəhrəmanlarına xas olan xüsusiyyətlər müstəntiq Sərraf Ədil oğlu obrazında reallaşmışdır. Olsun ki, bu gün üçün belə bir əsərin müasirliyi o qədər də hiss olunmasın, amma ötən əsrdə baş verən hadisə və olayları öyrənmək baxımından maraqlıdır. Eyni fikri biz Məmmədhüseyn Əliyevin “Qayaların səsi” romanı haqqında da söyləyə bilərik. Romanın ən başlıca məziyyəti budur ki, müəllif real həyatda gördüyü, dönə-dönə müşahidə etdiyi hadisələri, bilavasitə ünsiyyətdə olduğu insanları gerçək və inandırıcı təsvir etmişdir. Romanda bir rayon daxilində baş verən hadisələr qələmə alınır. Əsərin qəhrəmanı Gəray o dövrün ədəbiyyatında tez-tez təsadüf olunan müsbət qəhrəmanlarından biridir. Ancaq müəllif onu həyatın çətin sınaqlarından keçirir. O, müəllimdir, ilk növbədə, öz peşəsinin məsuliyyətini layiqincə dərk edir. Amma yaşadığı mühitdə açıq danışdığı, nöqsanları üzə dediyi üçün onu gözümçıxdıya salır, ləkələməyə çalışırlar.Onlar istəklərinə çatır, Gəray haqsız yerə tutulur, partiya sıralarından çıxarılır, amma sonda haqq qalib gəlir.

Yazıçının “Dağlar oğlu” romanından sonra ən müvəffəqiyyətli əsəri “Torpağın ətri” romanıdır. Bu əsərdə zəhmət adamlarının hə\yatı təsvir olunub. Dəxli yoxdur, hansı cəmiyyətdə yaşayırsansa-yaşa, torpağı sevmək, onun bəhrəsini görmək insana şərəf gətirir.

Yazıçının “Döyüşən illər” romanı isə tarixi səpgidə yazılmışdır.Müəllif keçən əsrin iyirminci illərində Lənkəran qəzasında baş verən hadisələri təsvir edir.

Məmmədhüseyn Əliyev Lənkəran ədəbi mühitinin ağsaqqalı idi və o, bu bölgədə ictimai-mədəni həyatda fəal iştirak edirdi. Lənkəranda Şəkər Aslan, Vaqif Hüseynov, Hüseynbala Mirələmov kimi istedadlar var idi, onların bir yazıçı kimi formalaşmağında heç şübhəsiz, Məmmədhüseyn müəllimin müəyyən rolu olmuşdur. İndi Azərbaycanın populyar yazıçılarından olan Hüseynbala Mirələmov Məmmədhüseyn Əliyevi xatırlayaraq yazır: “Orta məktəb illərində Lənkəranda təhsil aldığıma görə haqqım çatır ki, indi deyəm, ilk tanıdığım yazıçı məhz mərhum Məmmədhüseyn Əliyev idi. Lənkəran o zaman üçün də qaynar şəhər idi, o qədər iri olmasa da. Əllinci illərdə müharibənin ağır yaraları sağalır, təhsilə diqqət artır, ədəbi-bədii mühit formalaşırdı. Rayonda bölgə qəzeti və Azərbaycan radiosunun filialı fəaliyyət göstərirdi. ..Bir dəfə - o unudulmaz şagirdlik illərində Məmmədhüseyn Əliyev məktəbimizə qonaq gəldi, müəllimlərlə səmimi görüşdü”.



Məmmədhüseyn müəllimi teztez məktəblilər arasında görmək olurdu. Belə görüşlər isə şagirdlərin yaddaşından heç vaxt silinmir.

Onun N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı ilə ələqələri haqqında da söz açmaq lazımdır. Lənkəranda teatra həmişə böyük maraq olmuşdur. Bu teatr Azərbaycanın qabaqcıl sənət ocaqlarından biridir, bölgənin teatra olan həvəsi, tamaşaçıların görmək istədikləri bu teatrın səhnəsində reallaşır. Məmmədhüseyn Əliyevin bu teatrda bir neçə əsəri tamaşaya qoyulmuş və uğur qazanmışdır. Onun “Ana fəryadı” və “Prokuror” əsərləri uzun müddət repertuarda özünə yer tapmışdı. Hər iki əsərə görkəmli rejissor, Əməkdar İncəsənət xadimi mərhum Baba Rzayev quruluş vermişdi. Sonralar hər iki əsər Azərbaycan televiziyasının Ədəbi Dram verilişləri redaksiyası tərəfindən hazırlanmışdı.

Məmmədhüseyn Əliyev xasiyyətcə ciddi adam idi. Amma bu ciddiliyin arxasında qayğı və mehribançılıq, hörmət və sədaqət hissləri dururdu. Onu indi də unutmurlar. “Dağlar oğlu” romanının müəllifi elə Dağlar oğlu kimi də xatirələrdə yaşadı.